# UŞAQLARIN DOĞULANADƏK CİNS SEÇİMİNƏ YOX DEYƏK!



# MÖVCUD VƏZİYYƏT

Müasir dövr elmin və texnikanın, yeni texnologiyaların, elmi və praktiki innovasiyaların inkişafı ilə səciyyələnir. Tibb sahəsində inkişaf 3D və 4D rejimində ultrasəs müayinəsi vasitəsilə uşağın cinsini müəyyən etmək imkanı verir. Bu uşaqların doğulanadək cins seçiminə görə hamiləliyin süni şəkildə pozulması hallarının və oğlan uşaqlarının sayının artmasına gətirib çıxarır, və nəticədə ölkənin demoqrafik və sosial iqtisadi inkişafına mənfi təsir göstərə bilər.

Təəssüflər olsun ki, selektiv abortların sayının çoxluğuna görə Azərbaycan 12 lider ölkə sırasına daxil olub: Albaniya, Ermənistan, Çin, Gürcüstan, Hong Kong (Çin SAR), Hindistan, Koreya Respublikası, Çernoqoriya, Tayvan (Çin Əyaləti), Tunis, Vyetnam, Azərbaycan.



# ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI (ÜST)

- Abortla əlaqəli hər bir ölüm və əlilliyin qarşısını cinsi təhsil, effektiv kontrasepsiya, təhlükəsiz, qanuni abort və komplikasiyalara görə tibbi yardımın vaxtında göstərilməsi yolu ilə almaq olar.

- 2015 və 2019-cu illər arasında dünyada orta hesabla 73,3 milyon induksiya edilmiş (təhlükəsiz və təhlükəli) abort qeydə alınıb.

- Hər il ana ölümlərinin 4.7%-13.2%-i təhlükəli abortun nəticəsində baş verir.

# DOĞULAN UŞAQLAR ARASINDA CİNS NİSBƏTİ

Bioloji normaya əsasən
105 qıza-106 oğlan



Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin
rəsmi məlumatlarına əsasən (2019-cu il)
100 qıza-114 oğlan düşür

# STATİSTİK MƏLUMAT

| İl | Doğuşların sayı | Abortların sayı | Doğulan körpələrin cinsinə görə sayı | |
|---|---|---|---|---|
| | | | kişi | qadın |
| 2015 | 164,6min | 27,5 min | 88,4 min | 77,8 min |
| 2016 | 156,1min | 34,6 min | 84,9 min | 74,6 min |
| 2017 | 142,7min | 37,6 min | 76,6 min | 67,4 min |
| 2018 | 137,5min | 36,1 min | 74,2 min | 64,8 min |
| 2019 | 139,4min | 37,3 min | 75,2 min | 66,0 min |

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatları)

# SON 30 İLDƏ AZƏRBAYCANDA DOĞUŞLARA DAİR CİNSİYYƏT NİSBƏTİ



# ABORTA HANSI HALLARDA İCAZƏ VERİLİR ?

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Bəyanatı**

Abort – hamiləliyin 20-ci həftəsinə qədər və ya dölün çəkisi 500 qrama qədər olduğu müddətdə hamiləliyin pozulmasıdır.

**Azərbaycanda**

Hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır. Hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər.

Tibbi göstərişlərə əsasən və qadının razılığı olduqda hamiləlik müddətindən asılı olmayaraq, süni surətdə pozula bilər.

Hamiləliyin süni surətdə pozulmasına dair tibbi və sosial göstərişlərin siyahıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

Həkim tərəfindən xəstəxanalardan və ya başqa tibb müəssisələrindən kənarda hamiləliyin süni surətdə pozulması qadağandır.

(“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu, Maddə 30)

# ABORTLARIN NÖVÜ

- Medikamentoz – hamiləliyin süni pozulması məqsədilə farmakoloji vasitələrin istifadəsi

- Cərrahi - hamiləliyin süni pozulması məqsədilə transservikal prosedurların tətbiqi (elektrik və əl ilə vakuum-aspirasiya)



# ABORTUN FƏSADLARI

- Qanaxma
- Uşaqlıq boynunun travması
- Ümumi zəiflik, tərləmə, bradikardiya, tənəffüs hərəkətlərinin sayının azalması, ürəkbulanma, arterial təzyiqin düşməsi, halsızlıq
- İnfeksiyalaşma
- Çoxsaylı cərrahi abortlar nəticəsində sonrakı planlı hamiləliklərin baş tutmaması
- Psixoloji travma, depressiya



# REPRODUKTİV DÖVRDƏ OLAN CÜTLÜKLƏRƏ ARZUOLUNMAZ HAMİLƏLİKLƏRDƏN QORUNMAQ MƏQSƏDİ İLƏ
# KONTRASEPTİV ÜSULLAR

- UDV (spirallar)
- Kombinə edilmiş oral kontraseptivlər (mini həblər; inyeksiya şəklində vasitələr və s.)
- Baryer qorunma üsulları (prezervativ, vaginal diafraqm və s.)
- Cərrahi sterilizasiya (boruların liqasiyası, vazoktemiya)
- Təbii qorunma üsulları (təqvim üsulu, laktasiya (bunlar az etibarlıdır)



# KİŞİLƏRİN GENDER BƏRABƏRLİYİNƏ MÜNASİBƏTİNƏ DAİR TƏDQİQAT (İMAGES)

2018-ci ildə kişi və qadınların gender normaları ilə bağlı təcrübəsi və bu məsələlərə dair yanaşma tərzi, qayğı göstərmə və kişilərin ata qismində iştirakı da daxil olmaqla ev təsərrüfatındakı dinamika, ailə daxili zorakılıq, sağlamlıq və iqtisadi təzyiq kimi məsələləri əhatə edən araşdırma aparılmış və nəticələrinə dair hesabat hazırlanmışdır.

***Tərəfdaşlar***

- BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı nümayəndəliyi
- Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
- “Promundo” beynəlxalq təşkilatı
- Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM)

# SORĞUNUN NƏTİCƏLƏRİ

- Sorğuya cəlb olunan kişilərin 50%-dən, qadınların isə 40%-dən çoxu hesab edir ki, onların yaşadıqları rayonda və ya kənddə "qoruyucu vasitə almaq ayıbdır".
- Kişi və qadınların təxminən dörddə biri (müvafiq olaraq 27,9 və 24,8%-i) yaşadıqları rayonda və ya kənddə qoruyucu vasitələrin əldə edilməsinin çətin olduğunu bildirsə də, kişilərin 72,2 və qadınların 69,4%-i bu fikirlə razılaşmayıb.
- Sorğu zamanı qadınların 64,3%-nin ən azı bir dəfə abort etməsi müəyyən edilib.
- Qadınların hamısı abort zamanı 18 və ya daha çox yaşda olduğunu qeyd edilib.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN 2020-Cİ İL 24 FEVRAL TARİXLİ 71S NÖMRƏLİ SƏRƏNCAMI İLƏ "UŞAQLARIN DOĞULANADƏK CİNS SEÇİMİNİN QARŞISININ ALINMASINA DAİR 2020-2025-Cİ İLLƏR ÜÇÜN TƏDBİRLƏR PLANI"

Sənəddə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər:

- "Hamiləliyin süni pozulmasına dair sosial göstəricilərin Siyahısı"nın tətbiqinə nəzarətin gücləndirilməsi
- Erkən nikahların qarşısının alınması, qızların təhsildən yayınması hallarının qarşısının alınması üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi
- Məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması və fəaliyyətinə nəzarətin gücləndirilməsi
- Tək və çoxuşaqlı analara həmin müəssisələrdən istifadə imkanlarının artırılması üçün güzəştlərin tətbiqi

- Qadınlar arasında sahibkarlıq fəaliyyətinə dəstəyin artırılması

- Qadınlar üçün əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar üzrə kursların artırılması

- Qadınlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması, doğulanlar arasında cins nisbətinin pozulmasının əhalinin demoqrafik strukturuna təsiri və abortların reproduktiv sağlamlığa zərəri haqqında maarifləndirmə işinin aparılması



# AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT MƏCƏLLƏSİ

## Maddə 141 Qanunsuz abort etmə

- 141.1. Həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə—beş yüz manatdan min manatadək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır.
- 141.2. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə—min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.
- 141.3. Bu Məcəllənin 141.1 və 141.2-ci maddələrində nəzərdə tutulmuş əməllər nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan ağır zərər vurulduqda—iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

# AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT MƏCƏLLƏSİ

## Maddə 141 Qanunsuz abort etmə

- 141.4. Bu Məcəllənin 141.1 və 141.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda—üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



# BEYNƏLXALQ TƏCRÜBƏ

**Çin** və **Hindistanda** selektiv abort qanunla qadağandır. Həkim uşağın cinsi barədə valideynlərə məlumat verdiyi halda həbs cəzası ilə üzləşir. Bununla yanaşı, hər iki ölkədə pulsuz abort etdirilməsinə icazə verilir, bu da selektiv abort praktikasının sübut edilməsini çətinləşdirir.

**Böyük Britaniya** kimi ölkələrdə bu cür qanunlar mənasız hesab edilir: Cinsiyyət seçimi əsasında abortların qarşısının alınması, ümumiyyətlə ayrı-seçkiliyin və oğul fenomeninə üstünlük verilməsinin aradan qaldırılması qadın hüquqlarının təşviqinin gücləndirilməsini tələb edir. Qadının daha çox haqq və imkanları olan cəmiyyətdə doğulan qız uşağı ailə üçün ağır yük hesab edilməyəcəkdir.

Qeyd etmək lazımdır ki, **Azərbaycanda** qadınlara qarşı ayrı- seçkiliyin bütün formalarının ləğv edilməsi, kişi və qadınların hüquq bərabərliyinin təmin olunması, gender stereotiplərin və seksizmin aradan qaldırılması, qadınların bütün sahələrə, eləcə də iqtisadiyyata daha geniş şəkildə cəlb olunması istiqamətində mükəmməl normativ-hüquqi baza yaradılmış və mütəmadi olaraq təkmilləşdirilir, böyük layihələr həyata keçirilir.

# GENDER BƏRABƏRLİYİNİN TƏŞVİQİNƏ DAİR QANUNVERİCİLİK AKTLARI

- AR Konstitusiyasının 25-ci maddəsi ;
- "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Seçki Məcəlləsi cinslərə münasibətdə hər hansı ayrı-seçkiliyi qadağan edir və qadınlar üçün nəzərdə tutulan imtiyaz və üstünlüklərin ayrı-seçkilik olmadığını göstərir.
- "Azərbaycan Respublikasının regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 7-ci bəndi (qadınların məşğulluğunun artırılmasına dair yarımbəndlər )
- "Gələcəyə baxış 2020: İnkişaf Konsepsiyası" ( 7.4-cü bənd) çərçivəsində "Gender bərabərliyi üzrə 2019-2024- cü illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanıb

# GENDER BƏRABƏRLİYİ ANA BƏTNİNDƏN BAŞLAYIR!

# GENDER ƏSASLI UŞAQ SEÇİMİNƏ YOX DEYƏK!

